**UOT 338**

# DÖVLƏTİN İNVESTİSİYA SİYASƏTİ VƏ TİKİNTİ KOMPLEKSİNİN İNKİŞAFININ TƏNZİMLƏNMƏSİNİN İQTİSADİ-HÜQUQİ ASPEKTLƏRİ

**Rüfət MƏMMƏDLİ***

Məqalə redaksiyaya daxil olmuşdur: 28 fevral 2023; çapa qəbul edilmişdir: 16 mart 2023; online-da çap edilmişdir: 31 may 2023.

Received: 28th of February, 2023; accepted: 16th of March, 2023; published online: 31st of May, 2023.

**Açar sözlər**: *investisiyalar, tikinti kompleksi, əsas kapital, dövlətin investisiya siyasəti, hüquqi əsas, strateji yol xəritəsi, qanunlar, dövlətin tənzimləyici fəaliyyəti*

## Giriş

Azərbaycan iqtisadiyyatının davamlı inkişafının təmin edilməsində əsas amil kimi dövlətin səmərəli investisiya siyasətinin həyata keçirilməsi üzrə fəaliyyəti xüsusi qeyd edilməlidir. Hazırda qabaqcıl dövlətlərin iqtisadi proseslərin uğurlu tənzimləmə təcrübəsi göstərir ki, dövlətin investisiya siyasətinin başlıca istiqaməti kimi, milli tikinti kompleksinin dinamik inkişafının təmin edilməsi qəbul edilməlidir.

Bu baxımdan, milli iqtisadi inkişafın təmin edilməsi istiqamətində müvafiq dövlət qurumlarının aktiv iştirakı ilə ölkədə investisiya resurslarının səfərbər edilərək əsaslandırılmış şəkildə tikinti sferasına istiqamətləndirilməsi üzrə tədbirlər mühüm rol oynayır.

Dövlətin investisiya siyasətinin mühüm istiqaməti kimi tikinti kompleksinə xüsusi diqqət yetirilməsi onunla şərtlənir ki, iqtisadiyyatın elmi-texniki inkişafının maddi-texniki bazasının formalaşdırılması məhz əsaslı şəkildə tikinti sferasının səmərəli fəaliyyətindən asılıdır. Öz növbəsində, bu problemin milli maraqlara uyğun həllinin başlıca təminatçısı kimi dövlətin samballı hüquqi əsasın formalaşdırılması çıxış etməlidir.

Deyilənləri nəzərə almaqla, müasir iqtisadi münasibətlər şəraitində tikinti kompleksinin səmərəli inkişafının təmin edilməsi məqsədilə ölkədə investisiya proseslərinin səmərəliliyinin yüksəldilməsi mühüm əhəmiyyət kəsb edir.

## 1. Milli iqtisadiyyatın dinamik inkişafında investisiyaların rolu

İnvestisiya yatırımları milli iqtisadiyyatın inkişafında elmi-texniki tərəqqinin nəticələrindən səmərəli istifadə əsasında ölkənin sosial-iqtisadi problemlərin həllində dövlətin imkanlarını genişləndirir. «İnvestisiyanın xüsusi əhəmiyyəti istehsalın perspektiv strukturunun formalaşmasında və sosial məqsədlərin həyata keçirilməsində özünü göstərir. Belə ki, dövlətin həyata keçirdiyi investisiya siyasəti kapital qoyuluşlarının prioritet istiqamətlərini müəyyən edir. Məhz bu amil iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsində başlıca rol oynayır. Eyni zamanda, ölkə iqtisadiyyatının səmərəli inkişafının, onun ayrı-ayrı regionlarının, sahələrinin və yeni mülkiyyət formalarının yaranması investisiya siyasətinin xarakteri ilə müəyyən olunur. Belə ki, müasir dövrdə investisiya siyasətinin başlıca məqsədi iqtisadiyyatın inkişafının intensiv yolunun, məsrəflərin səviyyəsinin azaldılması ilə müşayiət olunan istehsal potensialının və fəaliyyət göstərən əsas istehsal fondlarının istifadəsinin genişləndirilməsinə qoyuluşların artırılmasıdır». (5, s. 20)

---

* *magistrant, BAAU*
*e-mail*: rufet.memmedli13@mail.ru

Son illərdə milli iqtisadiyyatın kompleks inkişaf etdirilməsi istiqamətində investisiya proseslərinin genişləndirilməsi üzrə atılan addımlar öz müsbət nəticəsini göstərmişdir. Belə ki: Araşdırmalar göstərir ki, dünya ölkələrində iqtisadi böhranın səngimədiyi bir dövrdə Azərbaycanın rəqabət qabiliyyətinin artdığı və investisiya reytinqinin yüksəldiyi nəzərə çarpır. Son dövrlərdə diqqətçəkən məqamlardan biri də qeyri-neft sektorunun dinamik artım tempinin qorunub saxlanmasıdır. Belə ki, Dövlət Neft Fondundan transferlər nəzərə alınmasa, dövlət büdcəsinə daxilolmaların 36,7 faizi neft-qaz sektorunun, 63,3 faizi qeyri-neft sektorunun payına düşmüşdür. Büdcə gəlirlərinin formalaşmasında neft sektorunun payının azalması, qeyri-neft sektorunun inkişaf etdirilməsi və iqtisadiyyatın şaxələndirilməsi sahəsində həyata keçirilən genişmiqyaslı fəaliyyətin nəticəsidir. Bununla bağlı, AR Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş «AR milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi»də qeyd edilir: «2014-cü il üzrə iqtisadi artımın sektorlar üzrə təhlili göstərir ki, aktiv dövlət kapitalizmi nəticəsində qeyri–neft ÜDM-in 80 faizə yaxın hissəsi, məşğulluğun isə 60 faizə qədər hissəsi qeyri-ticari sektorda istehsal edilmişdir. Qeyri-neft ÜDM-də qeyri–ticari sektorlar olan sosial və digər xidmətlər 28 faiz, tikinti sektoru 21 faiz, ticarət sektoru 13 faiz, nəqliyyat və anbar təsərrüfatı 7 faiz təşkil edir (şəkil 3). Bu dövrdə qeyri-neft ÜDM-in cəmi 8 faizi qeyri-neft sənayesinin hesabına formalaşmışdır. 2014-cü ildə kənd təsərrüfatı sahəsində yaradılmış əlavə dəyər ÜDM-in 6 faizini təşkil etsə də, ölkə üzrə məşğul əhalinin 36,7 faizi bu sahənin payına düşmüşdür. Kənd təsərrüfatında yüksək məşğulluq göstəricisi mülkiyyətində pay torpaqları olanların məşğul əhali kimi nəzərə alınmaları hesabına olmuşdur. (3, s. 3)

Qeyd etmək lazımdır ki, hazırda bu proses davam edir və burada əsas məqam ondan ibarətdir ki, dövlət tərəfindən əsas vurğu qeyri-neft sektorunun inkişafında investisiya resurslarının səmərəli istifadəsinin təmin edilməsidir. Bununla əlaqədar olaraq rəsmi dövlət sənədi sayılan Strateji Yol Xəritəsində problemin həlli vəziyyəti qeyd edilib: "Qızıl qayda"nın səmərəli və effektiv xərc siyasəti ilə tətbiqi Azərbaycanda dövlət sektorunun dayanıqlılığını və məhsuldarlığını təmin etməyə kömək edəcəkdir. Səmərəli xərc siyasəti kapital xərcləri üçün resurslardan rasional istifadəni təmin edir və bu zaman investisiya qoyuluşlarından gəlir əldəetmə və kapitalın özünüödəməsi kimi amillər nəzərə alınır. Başqa sözlə, büdcə intizamı tətbiq edilir. Bu cür siyasət zəruri texnoloji yüksəlişi və insan kapitalının inkişafını təmin edir". (3, b. 7.1.2)

Müasir şəraitdə milli iqtisadiyyatın dinamik inkişafının əsasını təşkil edən bir sahə kimi tikinti kompleksi dövlət tərəfindən investisiya resurslarının istiqamətləndirildiyi prioritet sahə sayılır. Beləliklə, dövlətin uğurla reallaşdırdığı investisiya siyasəti ilk növbədə milli iqtisadiyyatın davamlı şəkildə inkişafının təminatçısı sayılan tikinti kompleksinin rolu daha da güclənməkdədir.

Araşdırmalara əsasən söyləmək olar ki, təkcə son 10 il ərzində aparılan düzgün investisiya siyasəti sayəsində milli iqtisadiyyatın tikinti sektorunun inkişafına təqribən 130 milyard manat dəyərində yatırımlar həyata keçirilmişdir. Təkcə 2021-ci ildə əsas kapitalın artımına yönəldilən vəsaitlərin ümumi həcmi 16,8 milyard manat olmuşdur ki, onun da 12,6 milyard manatını (74,7%) daxili investisiyalar, 4.3 milyard manatını (25,3%) isə xarici investisiyalar təşkil etmişdir. Nəticə etibarı ilə, bütün bu proseslərin ardıcıl aparılması son illərdə tikinti sektorunun dinamik inkişafına əlverişli zəmin yaratmışdır. (7, s. 378)

Son dövrdə iqtisadiyyatın tikinti bölməsinə yönəldilən yatırımların həcminin dinamik yüksəldiyinə diqqət yetirməklə söyləmək olar ki, bu sahədə dövlət tərəfindən aparılan siyasət əsaslandırılmış və məqsədyönlü şəkildə reallaşdırılmışdır. Belə ki, tikinti sektoruna investisiya resurslarının vahid bir sistem üzrə yönəldilməsinin nəticəsi kimi, son illərdə ölkədə texnoloji, elmi-texniki, maliyyə-monetar tədbirlərin kortəbii deyil, əlaqə-

ləndirilmiş şəkildə səmərəli reallaşdırılmasına əlverişli zəmin yaratmışdır.

Tədqiqat göstərir ki, müasir dövrdə iqtisadiyyatın aparıcı bölməsində biri kimi, tikinti sektorunun da inkişafında mürəkkəb xarakterli əlverişli investisiya mühitinin yaradılması həlledici rol oynayır. Əlverişli investisiya mühiti dedikdə, ilk növbədə hər bir investor üçün öz məqsədinə çatmaq istiqamətində fəaliyyətinə münbit iqtisadi, hüquqi, təşkilati və texnoloji şəraitin yaradılması başa düşülməlidir.

## 2. Tikinti kompleksi hüquqi kontekstdə

Qabaqcıl dünya təcrübəsinə əsaslanmaqla belə hesab etmək olar ki. hazırda investisiya siyasətinin səmərəli reallaşdırılması dövlət tərəfindən müvafiq hüquqi əsasın formalaşdırılması və ondan bacarıqla istifadədən əsaslı şəkildə asılıdır. Başqa sözlə, investisiya proseslərinin tənzimlənməsinin dövlətin qəbul etdiyi mütərəqqi normativ-hüquqi aktlarında əks olunan normalar əsasında reallaşdırıldığı halda investisiya resursları maksimum səviyyədə milli maraqların təmin edilməsinə istiqamətlənə bilər. Bu baxımdan: «İnvestisiya fəaliyyəti haqqında» və «Xarici investisiyaların qorunması haqqında» Azərbaycan Respublikasının qanunları Azərbaycanda investisiya proseslərinin tənzimlənməsinin əsas hüquqi bazasını təşkil edir. Bununla yanaşı olaraq "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikası qanunu Azərbaycan Respublikasında investisiya fondlarının hüquqi statusu, yaradılması və idarə edilməsinin əsasları, dövlət qeydiyyatına alınması və fəaliyyətinə nəzarət xüsusiyyətlərini, habelə tərəflərin hüquq və vəzifələrini müəyyən etməklə bu sahədə digər münasibətləri tənzimləyir. (5, s. 72)

Məhz hüquqi təminatı yaratmaqla, bütün investisiyaların iqtisadi dövriyyəyə cəlb olunmasını və onlardan səmərəli istifadə dövlət zəmanəti altında təmin etmiş olur. Bu isə o deməkdir ki, dövlət ölkədə investisiya proseslərinin bütün iştirakçılarının səmərəli fəaliyyətinə fəaliyyətinə əlverişli hüquqi mühit yaradılmış olur.

Beləliklə, hazırda Azərbaycanda investisiya proseslərinin hüquqi mexanizm əsasında tənzimlənməsinin reallaşdırılmasında başlıca hüquqi sənədlər kimi, Milli Məclis tərəfindən 1992-ci ildə qəbul edilmiş «Xarici investisiyanın qorunması haqqında» və 1995-ci il tarixli «İnvestisiya fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanunları sayıla bilər. Qeyd etmək lazımdır ki, son dövrlərədək dəfələrlə təkmilləşdirilmə və zəruri dəyişikliklərin aparıldığı bu qanunlara əsaslanmaqla son 20 il ərzində ölkənin tikinti sferasında 10-a qədər meqa layihə 100-dən artıq milli səviyyəli layihələr reallaşdırılıb.

Məlumdur ki, mürəkkəb tərkibli investisiya resurslarının milli iqtisadiyyatda real maddi istehsal formasına çevrilməsi məhz tikinti sektorunun səmərəli fəaliyyəti vasitəsilə mümkün sayılır. Belə ki, 2010-cu ildən başlayaraq, Azərbaycan iqtisadiyyatında investisiyaların intensiv şəkildə əsas kapitalın formalaşdırılmasına istiqamətləndirilməsi öz müsbət nəticəsini verməkdədir və hazırda bu proses daha da genişləndirilir. Belə ki, 2010-2021-ci illər ərzində əsas kapitalın genişləndirilməsinə yönəldilən investisiyaların həcmi orta hesabla hər il 17% artaraq 2021-ci ildə 16,8 mlrd. manat təşkil edib. (cədvəl 1)

Cədvəldən görünür ki, əsas kapitala yönəldilən vəsaitlərin həcmi 2010-cu ilə nisbətən 2021-ci ildə 1,7 dəfə artaraq 16,8 mlrd. manat olmuşdur ki, onun da 12,5 mlrd. manatı və ya 74,7%-i daxili mənbələr hesabına təmin edilmişdir. Başqa sözlə, bu dövrdə daxili investisiyaların həcmi təqribən 2 dəfə artmışdır. Nəticədə isə ölkədə tikinti bazarının daxili imkanlar hesabına inkişafına geniş imkanlar yaranmışdır. (7, s. 378)

Hesablamalar göstərir ki. ümumilikdə 2021-ci ildə iqtisadi proseslərin inkişafına yönəldilmiş investisiyaların ümumi həcmi 2010-cu illə müqayisədə 80% artaraq, 23,3 mlrd. manat təşkil etmişdir və onların da 70%-ə qədəri daxili mənbələr hesabına mümkün olmuşdur.

*Cədvəl 1*

**Əsas kapitala yönəldilmiş investisiyalar, mln. manat***

| | Cəmi | Daxili investisiyalar | | Xarici investisiyalar | |
|---|---|---|---|---|---|
| | | mln.manat | %-lə | mln.manat | %-lə |
| 2010 | 9 905,7 | 6 291,7 | 63,5 | 3 614,0 | 36,5 |
| 2015 | 15 957,0 | 9 058,5 | 56,8 | 6 898,5 | 43,2 |
| 2016 | 15 772,8 | 6 490,3 | 41,1 | 9 282,5 | 58,9 |
| 2017 | 17 430,3 | 8 765,2 | 50,3 | 8 665,1 | 49,7 |
| 2018 | 17 244,9 | 12 016,7 | 69,7 | 5 221,5 | 30,3 |
| 2019 | 18 539,5 | 12 867,1 | 69,4 | 5.672,4 | 30.6 |
| 2020 | 17 226,1 | 12 070,8 | 65.1 | 5.155,3 | 34,9 |
| 2021 | 16 815,5 | 12 561,9 | 74,7 | 4 253,6 | 25,3 |

*AR statistik göstəriciləri 2022.DSK, s.378

Göstərmək lazımdır ki, Azərbaycanın investisiya mühitinin yaxşılaşmasında iqtisadi-hüquqi mühitlə paralel olaraq dövlət başçısının imzaladığı normativ-hüquqi aktlar əsasında dövlətin reallaşdırdığı institusional islahatların da böyük rolu olmuşdur. Belə ki, investisiyalar sahəsində bütün proseslərin səmərəli uzlaşdırılmasının və tənzimlənməsinin təmin edilməsi istiqamətində Azərbaycan Respublikası Prezidentinin 30.03.2006 tarixli «İnvestisiya Fəaliyyətinin Təşviqi üzrə Əlavə Tədbirlər haqqında» Sərəncamı ilə «Azərbaycan İnvestisiya Şirkəti» Açıq Səhmdar Cəmiyyəti (AİŞ ASC) yaradılmışdır. Burada başlıca məqsəd milli iqtisadiyyata bütün mənbələrdən investisiyaların cəlb edilməsi əsasında ilk növbədə, tikinti kompleksinin dinamik inkişafını təmin etməkdir.

Bu sahədə fəaliyyəti davam etdirərək, investisiya proseslərinin daha səmərəli tənzimlənməsini təmin etmək məqsədilə AR Prezidentinin 2020-ci il 7 avqust tarixli Fərmanı ilə AİŞ ASC əsasında «Azərbaycan İnvestisiya Holdinqi» (AİH) yaradılmışdır. «Azərbaycan İnvestisiya Holdinqi» milli iqtisadiyyatın aparıcı sahələrindən biri sayılan tikinti sektorunun inkişafına güclü təkan verməklə müasir tələblərə cavab verən müəssisələrin inşasının genişləndirilməsi istiqamətində fəaliyyətin də geniş vüsət almasını təmin etmişdir.

Beləliklə, yeni formalaşdırılan investisiya qurumlarının səmərəli tənzimləyici fəaliyyəti bu sahədə həyata keçirilməli olan layihələrə daha böyük həcmdə iri həcmli investisiyaların cəlb olunmasını təmin etmiş oldu. Ümumiyyətlə, hesablamalar göstərir ki, hazırda ümummilli əhəmiyyətli layihələrin maliyyələşməsinə təqribən 3 mlrd. ABŞ dolları həcmində vəsait tələb olunur. Bu vəsaitlərin təqribən 30%-ni xarici investisiyalar təşkil edir. Xüsusi qeyd etmək lazımdır ki, «Azərbaycan İnvestisiya Holdinqi»nin də iştirak etdiyi bu layihələrin tam reallaşdırılması nəticəsində ölkədə əlavə olaraq 50000 yeni iş yerini açmağa imkan yaranacaqdır. Nəticə etibarı ilə milli iqtisadiyyata investisiyalar istiqamətləndirməklə AİH paralel olaraq milli tikinti bazarının daha da inkişafına geniş imkanlar açmış olacaqdır.

Araşdırmaların göstərdiyi kimi, əsaslandırılmış investisiya siyasətinin reallaşdırılması əsasında hazırda tikinti sektoru sürətlə inkişaf etməkdədir (cədvəl 2).

Cədvəlin rəqəmlərinə əsasən söyləmək olar ki, hazırda bütün mənbələr üzrə investisiyaların ümumi həcmi 2021-ci ildə 2005-ci ilə nisbətən 3,8 dəfə artaraq 25,3 mlrd. manat təşkil etmişdir. Müvafiq olaraq, tikinti sektorunda əsas kapitala yönəldilmiş investisiyaların həcmi 2021-ci ildə 2005-ci ilə nisbətən 2,9 dəfə artmış və 16,8 mlrd. manat təşkil etmişdir. Bütün bunların yekunu kimi, aparılan səmərəli tənzimləmə fəaliyyəti nəticəsində tikinti işlərinin ümumi dəyəri göstərilən dövr ərzində 6,3 dəfə artaraq təqribən

10 mlrd. manata çatmışdır. Bu bir daha onu sübut edir ki, investisiya resurslarının düzgün istiqamətləndirilməsi tikinti sektorunun səmərəli inkişafına əlverişli şərait yaratmışdır və nəticə etibarı ilə, dövlətin investisiya siyasəti öz müsbət nəticələrini göstərmişdir.

***Cədvəl 2***

**Tikinti sektorunun əsas göstəriciləri, 2005-2021 illər, milyon manat**

| | **2005** | **2010** | **2015** | **2019** | **2020** | **2021** |
|---|---|---|---|---|---|---|
| Bütün mənbələrdən investisiya qoyuluşları | 6 733,4 | 14 118,9 | 20 057,4 | 24 986,6 | 22 484,0 | 25 313.8 |
| Əsas kapitala yönəldilmiş vəsaitlər | 5 769,9 | 9 905,7 | 15 957,0 | 18 539,5 | 17 226,1 | 16 815,5 |
| Əsas fondların istifadəyə verilməsi | 4 780,7 | 5 61,3 | 9.933,3 | 1 1803,2 | 13 788,6 | 12 978,8 |
| Tikinti işlərinin dəyəri, | 1 558,0 | 4 531,4 | 7 319,6 | 9 439,2 | 9 778,8 | 9 974,8 |

*AR statistik göstəriciləri 2022.DSK, s. 505

Xüsusi qeyd edilməlidir ki, son illərdə AR Prezidenti tərəfindən qəbul edilmiş 2 mühüm sənəd ölkədə investisiya resurslarının tikinti sektorunun inkişafına istiqamətləndirilməsində mühüm rol oynamışdır. Buraya ilk növbədə AR Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə qəbul olunan «Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi» (SYX) aid edilir. SYX-si tikinti sektorunun 2025-ci ilədək dövrün dinamik inkişaf strategiyasını əks etdirir. SYX-si milli tikinti sektorunun gələcək inkişafı üçün səmərəli işləyən iqtisadi-hüquqi mexanizmini yaratmışdır.

Həmçinin, iqtisadi-hüquqi tənzimləmə mexanizminin inkişafı istiqamətində AR Prezidentinin 2021-ci il 02 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər» perspektiv dövrə milli iqtisadiyyatın davamlı inkişafı üzrə kompleks şəkildə əlaqələndırılmiş tədbirləri müəyyənləşdirmişdır. Sənəddə milli iqtisadiyyatın dayanaqlı inkişafının əsas mənbəyi kimi investisiyaların rolu xüsusi qeyd edilir. Belə ki: «İqtisadiyyatda uzunmüddətli investisiya resurslarının əsas mənbəyi olan kapital və sığorta bazarının inkişafı sürətləndirilməlidir. Milli bank sektorunun dayanıqlığı təmin olunmalı, ona olan etimad yüksəlməli, real iqtisadiyyatın maliyyələşdirilməsində bankların payı artırılmalı və sahibkarlıq fəaliyyətinin inkişafına təkan verməlidir. Bank kreditlərinin sahibkarlıq fəaliyyəti üçün əlçatanlığını təmin edəcək real işlək mexanizmlər hərəkətə gətirilməli, bank kreditlərinin təminatı məsələlərində bürokratik əngəllər aradan qaldırılmalıdır.» (4, b. 1.1.)

**Nəticə**

Son 10 il ərzində Azərbaycanda investisiya siyasətinin milli tikinti sektorunun inkişafına istiqamətlənməsi sahəsində dövlət geniş tənzimləyici fəaliyyət həyata keçirmişdir.

Bu məqsədlə səmərəli işləyən iqtisadi-hüquqi tənzimləmə mexanizminin formalaşdırılması istiqamətində zəruri normativ-hüquqi aktlar qəbul edilmişdir.

İnvestisiya resurslarından səmərəli istifadənin etibarlı hüquqi əsasının formalaşdırılması üzrə AR Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə qəbul olunan «Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi» və 2021-ci il 02 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər» milli tikinti sektorunun 2025-ci ilədək və sonrakı dövrə dinamik inkişaf strategiyasını əks etdirir. Bu sənədlər milli tikinti sektoru-

nun inkişafı üçün investisiya resurslarının tam səfərbər edilməsi istiqamətində səmərəli işləyən iqtisadi-hüquqi mexanizmini yaratmışdır.

## ƏDƏBİYYAT


1. Azərbaycanın statistik göstəriciləri 2022. AR DSK. “Narıncı Nəşriyyat Evi” MMC. 2022, 747 s.
2. Əzizova G.A. Dövlətin investisiya-innovasiya siyasəti. Bakı: İqtisad Universiteti, 2012, 212 s.
3. İsayev S.Z. İnvestisiya fəaliyyətinin hüquqi tənzimlənməsi. Bakı: İqtisad Universiteti, 2012, 187 s.
4. Musayev A.F. İnnovasiya iqtisadiyyatı və vergi stimullaşdırılması. Bakı: Bestpack, 2014, 183 s.
5. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi. Bakı: Qanun, 2012, 467 s.
6. AR Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı. «Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi». https://e-qanun.az/framework/39721
7. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 02 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər»- https://president.az/az/articles/view/50474
8. Azərbaycan İnvestisiya Holdinqinin Nizamnaməsinin təsdiq edilmişi barədə dir Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 7 avqust tarixli Fərmanı
9. http://www.elibrary.az - AR Prezident kitabxanası
10. http://www. economy.gov.az - AR İqtisadiyyat Nazirliyinin rəsmi saytı
11. http://www.e-qanun.az - AR Ədliyyə Nazirliyinin rəsmi saytı
12. İnvestisiya fəaliyyəti haqqında AR Qanunu (https://president.az/az/articles/view/56757)


***Summary***

***Rufat Mammadli***


***State İnvestment Policy and Construction Complex Economic and Legal Aspects of Development Regulation***

As an area that forms the basis of the dynamic development of the national economy, the construction complex is considered a priority area for investment resources by the state. Thus, the state's successfully implemented investment policy is strengthening the role of the construction complex, which is considered to be the provider of comprehensive development of the national economy.

In recent years, as a result of directing investment resources to the construction sector by the state on the basis of a single system, it has created a favorable basis for the coordinated realization of technological, scientific-technical, financial-monetary measures.

The implementation of the main directions of the state policy in the field of architecture, urban planning, construction and housing and utilities is ensured by solving the following main tasks:

- To provide citizens with affordable and comfortable apartments, to increase the volume of operation of the housing industry and to reduce the cost, to create a high-quality living environment, including the improvement and implementation of the housing policy at the regional level as the basis of the socio-economic policy;
- Development of transport and utility infrastructure for citizens with social and cultural facilities;
- Protection and restoration of architectural and urban heritage objects of cultural and historical importance in the area of modern urban planning;
- Improving the quality of the living environment, modernizing urban planning activities, creating a living environment based on innovations in cities;
- Adequate budget planning and implementation of state programs, including measures aimed at the development of the architectural and construction complex, etc. In the implementation of the state's investment policy, the economic and legal transparency of the construction industry is one of the necessary issues. Ensuring transparency from the economic aspect is a factor that increases the efficiency of the

investment in the long term. At the same time, constant review of legal-normative documents has a positive effect on the progress of the general work.

The regulation of investment processes can be aimed at ensuring national interests as much as possible if it is carried out on the basis of relevant legal norms. A large number of mega-projects and national-level projects have been implemented in the country's construction sphere over the past 20 years, based on the main legal documents in the implementation of the regulation of investment processes on the basis of legal mechanisms.

***Key words**: investments, construction complex, fixed capital, state investment policy, legal basis, strategic road map, laws, regulatory activity of the state*

***Резюме***

***Руфат Мамедли***

***Государственная инвестиционная политика и строительный комплекс экономико-правовые аспекты регулирования развития***

Как сфера, составляющая основу динамичного развития национальной экономики, строительный комплекс считается приоритетной сферой, куда направляются инвестиционные ресурсы государства. Таким образом, успешно реализуемая государством инвестиционная политика усиливает роль строительного комплекса, который рассматривается как гарант комплексного развития национальной экономики.

В последние годы в результате направления государством инвестиционных ресурсов в строительную отрасль на основе единой системы создана благоприятная база для согласованной реализации технологических, научно-технических, финансово-денежных мероприятий.

Реализация основных направлений государственной политики в области архитектуры, градостроительства, строительства и жилищно-коммунального хозяйства обеспечивается путем решения следующих основных задач:

- Обеспечить граждан доступными и комфортными квартирами, увеличить объемы эксплуатации жилищного хозяйства и снизить себестоимость, создать качественную среду проживания, в том числе совершенствование и реализацию жилищной политики на региональном уровне как основы социально-экономической политики;

- развитие транспортно-коммунальной инфраструктуры для граждан с объектами социально-культурного назначения;

- Охрана и реставрация объектов архитектурно-градостроительного наследия культурно-исторического значения в сфере современного градостроительства;

- Повышение качества среды обитания, модернизация градостроительной деятельности, создание среды обитания на основе инноваций в городах;

- Адекватное бюджетное планирование и реализация государственных программ, в том числе мероприятий, направленных на развитие архитектурно-строительного комплекса и др.

При реализации государственной инвестиционной политики экономическая и правовая прозрачность строительной отрасли является одним из необходимых вопросов. Обеспечение прозрачности с экономической точки зрения является фактором, повышающим эффективность инвестиций в долгосрочной перспективе. При этом постоянный пересмотр нормативно-правовых документов положительно влияет на ход общей работы. Регулирование инвестиционных процессов может быть направлено на максимальное обеспечение национальных интересов, если оно осуществляется на основе соответствующих правовых норм. За последние 20 лет в строительной сфере страны реализовано большое количество мегапроектов и проектов национального уровня на основе основных правовых документов по регулированию инвестиционных процессов в Азербайджане.

***Ключевые слова**: инвестиции, строительный комплекс, основной капитал, государственная инвестиционная политика, правовая база, стратегическая дорожная карта, законы, регулирующая деятельность государства.*

Redaksiya heyətinin üzvü i.e.d., prof. Həsənli Yadulla Həmdulla oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.